**Daşqın MƏHƏMMƏDLİ**
***BDU-nun "Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrasının müəllimi***
dashqin.muhammedli@mail.ru

# AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏKİ-ZAQATALA İQTİSADİ REGİONU ÜZRƏ KİTABXANALARIN İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ VƏZİYYƏTİ

***Açar sözlər:*** Şəki-Zaqatala, informasiya texnologiyası, kommunikasiya, kitabxana, oxucu, elektron kataloq, fərdi kompüter, elektron kitabxana,internet, sənəd, informasiya resursu

Ключевые слова: Шаки-Загатала, информационные технологии, связь, библиотека, читатель, электронный каталог, персональный компьютер, электронная библиотека, интернет, документ, информационный ресурс

***Key words:*** *Shaki-Zagatala, information technology, communication, library, reader, electronic catalog, personal computer, electronic library, internet, document, information resource*

Azərbaycan Respublikasının Şəki-Zaqatala İqtisadi regionu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il 11 fevral tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı"nın (2004-2008-ci illər) təsdiq edilməsi barədə fərmanı ilə yaradılmışdır. Bu ali ümumdövlət sənədinə əsasən Azərbaycan Respublikasında 10 iqtisadi rayon - Abşeron, Quba-xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Lənkəran, Naxçıvan – yaradılmışdır. [1].

Şəki-Zaqatala İqtisadi regionu coğrafi mövqeyinə, əhalisinin polietnik tərkibinə, eləcə də, kitabxana-informasiya infrastrukturunun yerləşmə vəziyyətinə görə xüsusilə fərqlənir. Bu iqtisadi regionun tərkibinə Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Şəki rayonları daxildir. [1].

Ümumiyyətlə, qeyd edilməlidir ki, kitabxana işi və informasiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyində ("Kitabxana işi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunlarında, eləcə də, "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında", "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" və s. Azərbaycan Respublikası Prezidentinin sərəncamları, müvafiq dövlət orqanlarının, rəsmi təşkilatların əmr, sərəncam və göstərişləri və s.) regionlarda kitabxana-informasiya mühitinin mövcud durumunun təhlil edilərək öyrənilməsi, mövcud çatışmazlıqların ortaya çıxarılaraq həlli yollarının verilməsi və bütövlükdə kompleks formada modernləşdirilməsi məsələləri aktual elmi-praktiki və hüquqi müddəalar kimi qarşıda qoyulur. [1;2;8;11].

Azərbaycan Respublikasının Şəki-Zaqatala İqtisadi regionunun kitabxana-informasiya infrastrukturunun təhlili aşağıdakı əsas istiqamətlər:

-İqtisadi regionda mövcud kitabxanaların növlər üzrə bölgüsü;

-İqtisadi regionda kitabxana fondunun kitabxanaların növləri üzrə bölgüsü;

-İqtisadi regionda kitabxana fondunun kitabxanaların növləri və informasiya mənbələri üzrə bölgüsü üzrə bölgüsü;

-İqtisadi regionda kitabxana fondunun kitabxanaların növləri və dillər üzrə bölgüsü;

-İqtisadi regionda kitabxanaların növləri və

istifadəçilər tərəfindən müraciətlərin sayına görə bölgüsü;

-İqtisadi regionda kitabxanaların növləri, eləcə də istifadəçilərə kitab və digər informasiya mənbələrinin verilməsi üzrə bölgüsü;

-İqtisadi regionda kitabxanaların kompüterlə təminatı üzrə bölgüsü;

-İqtisadi regionun kitabxanalarında informasiya və kommunikasiya texnologiyalarının mövcudluğu üzrə bölgüsü;

-İqtisadi regionda kitabxana işçilərinintəhsil səviyyəsi üzrə bölgüsü-üzrə aparılması məqsədəuyğun hesab edilir. [11, s.88].

Apardığımız tədqiqatlar nəticəsində Azərbaycan Respublikasının Şəki-Zaqatala İqtisadi regionunun rayonları üzrə (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki, Zaqatala) mövcud olan kitabxanaların ümumi sayı, həmçinin, kitabxanalarda informasiya və kommunikasiya texnologiyalarının mövcudluğu üzrə bölgüsü (müvafiq olaraq şəhər və kənd yerlərində - faiz göstəriciləri də qeyd edilməklə) aşağıdakı kimi ümumiləşdirilmişdir:

**Region üzrə kitabxanaların sayı: Cəmi 764.**

**Onlardan:**

Balakən rayonu üzrə 100 kitabxana;

Qax rayonu üzrə 115 kitabxana;

Qəbələ rayonu üzrə 134 kitabxana;

Oğuz rayonu üzrə 68 kitabxana;

Şəki rayonu üzrə 200 kitabxana;

Zaqatala rayonu üzrə 147 kitabxana.

**Bu rəqəmləri faiz göstəriciləri ilə göstərsək:**

Balakən rayonu üzrə 100 % ;

Qax rayonu üzrə 100% ;

Qəbələ rayonu üzrə 100 %;

Oğuz rayonu üzrə 100 %;

Şəki rayonu üzrə 100 %;

Zaqatala rayonu üzrə 100 %.[1; 12, s.29].

**Region üzrə kitabxanalarda mövcud olan kompüterlərin sayı:**

**Cəmi: 126 ədəd**

**Onlardan:**

Balakən rayonu üzrə 22 ədəd;

Qax rayonu üzrə 14 ədəd ;

Qəbələ rayonu üzrə 19 ədəd;

Oğuz rayonu üzrə 11 ədəd;

Şəki rayonu üzrə 44 ədəd;

Zaqatala rayonu üzrə 16 ədəd.

İqtisadi region üzrə mövcud olan kompüterlərdən 34%-i kənd kitabxanalarının, 66 %-i isə region üzrə şəhər kitabxanalarının payına düşür. Ümumilikdə, iqtisadi regionun kitabxanaları üzrə mövcud olan kompüterlərin sayı respublika kitabxanalarında mövcud olan kompüterlərin ümumi sayının 5,6 faizini təşkil edir. [4; 6, s.14].

**Region üzrə mövcud kitabxanalarda tətbiq edilən elektron kataloq: Cəmi: 10.**

**Onlardan:**

*Balakən rayonu üzrə* - 1elektron kataloq (Mərkəzləşdirilmiş Kitabxana Sistemində tətbiq edilir);

*Qax rayonu üzrə* - 1elektron kataloq (Mərkəzləşdirilmiş Kitabxana Sistemində tətbiq edilir);

*Qəbələ rayonu üzrə* -1 elektron kataloq (Mərkəzləşdirilmiş Kitabxana Sistemində tətbiq edilir);

*Oğuz rayonu üzrə* -1 elektron kataloq (Mərkəzləşdirilmiş Kitabxana Sistemində tətbiq edilir);

Şəki rayonu üzrə -1 elektron kataloq (Mərkəzləşdirilmiş Kitabxana Sistemində tətbiq edilir);

*Zaqatala rayonu üzrə* -1 elektron kataloq (Mərkəzləşdirilmiş Kitabxana Sistemində tətbiq edilir);

Şəki Musiqi Kollecinin kitabxanasında;

Şəki Texniki Kollecinin Kitabxanasında;

Qəbələ Turizm Kollecinin kitabxanasında;

Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kollecinin kitabxanasında tətbiq edilir. [13;14;15;16;17;18].

*Bu göstəriciləri bütövlükdə faizlə ifadə etsək, region kitabxanalarında tətbiq edilən elektron kataloq, ümumilikdə respublika kitabxanaları üzrə tətbiq edilən elektron kataloqların 7,4 %-ni təşkil edir.* [9, s.38].

Şəki-Zaqatala İqtisadi regionu üzrə mövcud kitabxanalarda yaradılan elektron kitabxanalar:

cəmi: 8.

**Onlardan:**

*Balakən rayonu üzrə* - elektron kitabxana(Mərkəzləşdirilmiş Kitabxana Sistemində yaradılmışdır);

*Qax rayonu üzrə* - 1elektron kitabxana (Mərkəzləşdirilmiş Kitabxana Sistemində yaradılmışdır);

*Qəbələ rayonu üzrə* -1 elektron kitabxana (Mərkəzləşdirilmiş Kitabxana Sistemində tətbiq edilir);

*Oğuz rayonu üzrə* -1 elektron kitabxana (Mərkəzləşdirilmiş Kitabxana Sistemində yaradılmışdır);

Şəki rayonu üzrə -1 elektron kitabxana (Mərkəzləşdirilmiş Kitabxana Sistemində yaradılmışdır);

*Zaqatala rayonu üzrə* -1 elektron kitabxana (Mərkəzləşdirilmiş Kitabxana Sistemində yaradılmışdır) ;

Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Şəki Pedaqoji Kollecinin kitabxanasında;

Şəki Dövlət Regional Kollecinin kitabxanasında -yaradılmışdır. [13;14;15;16;17;18].

*Bu göstəriciləri də faizlə ifadə etsək, region kitabxanalarında yaradılan elektron kitabxanalar, ümumilikdə respublika kitabxanalarında yaradılan elektron kitabxanaların 8,2 %-ni təşkil edir.* [10, s.39].

Həmçinin, Şəki-Zaqatala İqtisadi regionu üzrə mövcud olan əksər (şəhərlər üzrə -Balakən, Qax, Qəbələ, Oğuz, Şəki, Zaqatala rayon mərkəzləri) və rayon mərkəzlərinə yaxın olan iri kənd və qəsəbələrdə fəaliyyət göstərən kitabxanalarda İnternetdən və informasiya-kommunikasiya texnologiyalarının əhəmiyyətli növlərindən olan *elekton poçt* sistemindən istifadə edilir.

İqtisadi regionun kitabxanalarında beynəlxalq tammətnli informasiya bazalarına çıxış imkanlarının əldə edilməsi məqsədilə iş aparılır. Bu prosesdə regionda fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri kitabxanaları fərqlənir.

Bir çox mövcud nöqsanlara, maddi-texniki çatışmazlıqlara baxmayaraq, iqtisadi regionun kitabxanalarında elektron kataloqların tətbiqi səviyyəsini yüksəltmək məqsədilə Avtmatlaşdırılmış Kitabxana-İnformasiya İdarəetmə Sistemlərilə işin effektivliyinin artırılması istiqamətində dinamik iş aparılır.

## ƏDƏBİYYAT

1."Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər) // Azərbaycan.- təsdiq edilməsi.-2004.-11 fevral

2.Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında: Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan-2007.-21 aprel

3."Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamı// Respublika.-2008.-7 oktyabr.

4.Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında. I və II c./ Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.Bakı: Nurlar,2007.-820s.

5.Xələfov A.A. Kitabxanaların kompüterləşdirilməsinin əsasları: Dərslik.- B.: BDU nəşr-tı, 2006.-205s. (A.Qurbanovla birlikdə).

6.Xələfov A.A. Kitabxana və kommunikasiya// Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal.-B.,2011,№1(4).-s.4-16.

7. Xələfov A.A XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas istiqamətləri : (mulahizələr, tərtiblər və proqnozlar).-B., 2006.-106s

8.İnformasiya, informasiyalaşdırma və informasiyanın muhafizəsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qanunu// Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 1998.- №6.-1214-1222
9.İsmayılov X.İ Kitabxana və informasiya texnologiyaları: Dərs vəsaiti.-
B.: Nurlan Nəşriyyatı Poliqrafiya Mərkəzi, 2009.- 312s.
10.İsmayılov X.İ. Kitabxanaların idarə edilməsinin müasir problemləri: Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2009.-№1.-s.27-39.
11.»Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu // Azərbaycan.-1999.-14 mart.
12."Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə. Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-B.-2009.-88 s.
13. Şəki rayon MKS-nin 2009-2017-ci il hesabatları
14.Zaqatala rayon MKS-nin 2009-2017-ci il hesabatları
15.Qəbələ rayon MKS-nin 2009-2017-ci il hesabatları
16.Qax rayon MKS-nin 2009-2017-ci hesabatları
17.Oğuz rayon MKS-nin 2009-2017-ci il hesabatları
18.Balakən rayon MKS-nin 2009-2017-ci il hesabatları

**Д.Г.Магомедли**

**ПРИМЕНЕНИЕ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ КНИГ НА ЭКОНОМИЧЕСКОМ РЕГИОНЕ ШАКИ-ЗАГАТА РЕСПУБЛИКИ АЗЕРБАЙДЖАН**

**РЕЗЮМЕ**

В статье обобщается состояние применения современных информационно-коммуникационных технологий в библиотеках Шекинско-Загатальского экономического региона Азербайджанской Республики, уровень доступа к персональным компьютерам, электронный каталог, электронная библиотека, доступ к электронным базам данных. Кроме того, в исследование также включена степень специализации сотрудников библиотеки в области информационных и коммуникационных технологий в контексте современного информационного

**D.H.Mahammadli**

**THE USE SİTUATİON OF THE İNFORMATİON AND COMMUNİCATİON TECHNOLOGIES İN LİBRARİES OF THE SHAKI-ZAGATA ECONOMIC REGION OF THE REPUBLIC OF AZERBAIJAN**

**SUMMARY**

*The article is contemplationed the use situation of the modern information and communication technologies and perconal computers in libraries of the Shaki-Zagata economic region of the Republic of Azerbaijan. Also, this article is summarized about the situation of access potential to the electronic catalogue, electronic library, international fulltext information databases. Also, here is analysed in modern informatizationed society the degree of specialization of the region library workers*

Rəyçilər: prof. X.İ.İsmayılov, dos. S.A.Xələfova